# Seçkilər Azərbaycanın nüfuzunun daha da yüksəlməsinə töhfə verəcək

Növbədənkənar seçkilərin təyin edilməsi həm də onu göstərir ki, Azərbaycan siyasi sistemi gücləndirməkdə, islahatları həyata keçirməkdə, ədalətli seçki mühitini təmin etməkdə maraqlıdır. Bu seçkilər Azərbaycanın gücünü daha da artıraraq beynəlxalq aləmdə nüfuzunun möhkəmlənməsinə öz töhfəsini verəcək.

→ 7

# Seçkilər Azərbaycanın nüfuzunun daha da yüksəlməsinə töhfə verəcək

"Azərbaycanın əldə etdiyi tarixi qələbələr nəticəsində Cənubi Qafqazda yaranan geosiyasi reallıqlar fonunda qarşıda yeni hədəflər və çağırışlar dayanır. Bu məqsədlərə çatmaq üçün isə ölkədə seçkilərin keçirilməsinə zərurət yaranmışdı".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat bildirib ki, Prezident İlham Əliyev bu amilləri nəzərə alaraq 7 fevral 2024-cü ildə növbədənkənar prezident seçkiləri keçirilməsi barədə sərəncam imzalayıb. Dövlət başçısı ölkənin davamlı və dayanıqlı inkişafını təmin etmək üçün genişmiqyaslı islahatlar həyata keçirir. Bugünkü dünyamızda baş verən dəyişkən geosiyasi proseslər ölkə daxilində də zamanın çağırışlarına uyğun olaraq siyasi sistemin daha da gücləndirilməsi məqsədilə islahatların həyata keçirilməsini tələb edir. Prezident İlham Əliyevin son illərdə həyata keçirdiyi siyasi islahatlar nəticəsində ölkədə siyasi sistemin güclənməsi baxımdan tamamilə yeni konfiqurasiya yaranıb. Bunun nəticəsidir ki, ölkədə fəaliyyət göstərən siyasi qüvvələr sərgilədiyi ideoloji xətdən və mövqedən asılı olmayaraq, milli və dövlətçilik maraqları ilə bağlı vahid platformadan çıxış edirlər.

A.Nağıyev qeyd edib ki, siyasi münasibətlər sisteminin yeni çağırışlar, reallıqlar, həmçinin milli maraqlar əsasında tənzimlənməsi nəinki ölkənin davamlı inkişafı, həmçinin siyasi sistemin güclənməsi baxımdan da önəmlidir: "Bunun bariz nümunəsini 44 günlük Vətən müharibəsi zamanı və postmüharibə dövründə gördük. Respublikada fəaliyyət göstərən siyasi partiyaların ölkəmizin ərazi bütövlüyünün təmin olunması məsələsində Prezidentin, Müzəffər Ali Baş Komandanın qətiyyətli siyasətinə birmənalı dəstək göstərmələri milli həmrəyliyin nümayişidir".

Növbədənkənar seçkiləri Zəfər seçkisi kimi qiymətləndirən A.Nağıyev vurğulayıb ki, məhz 44 günlük Vətən müharibəsində zəfərin əldə edilməsi seçkilərin Şuşada, Xankəndidə, Laçında, Xocalıda və işğaldan azad olunmuş digər rayonlarımızda keçirilməsinə imkan yaradacaq.

Torpaqların işğaldan azad edilməsindən sonra seçkilərin keçirilməsinin siyasi əhəmiyyətindən söz açan deputat deyib ki, bəzi xarici qüvvələr hələ də Azərbaycanın qələbəsini həzm edə bilmir: "Növbədənkənar seçkilərin təyin edilməsi həm də onu göstərir ki, Azərbaycan siyasi sistemi gücləndirməkdə, islahatları həyata keçirməkdə, ədalətli seçki mühitini təmin etməkdə maraqlıdır. Bu seçkilər Azərbaycanın gücünü daha da artıraraq beynəlxalq aləmdə nüfuzunun möhkəmlənməsinə öz töhfəsini verəcək".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 21 dekabr, № 279.- S.1, 7.